# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN HƏYAT VƏ FƏALİYYƏTİNİN XRONOLOGİYASI

## 1990-1993

| | |
|---|---|
| **1990-cı il 22 iyul** | Naxçıvana gəlişi münasibətilə şəhər meydanında əhali ilə görüşü olmuşdur. |
| **1990-cı il 21 avqust** | Naxçıvan MSSR Ali Sovetinin Rəyasət heyəti Heydər Əliyevin Naxçıvan MSSR vətəndaşlığı barədə qərar qəbul etmişdir. |
| **1990-cı il 25 avqust** | "Respublika" qəzeti Azər Abdullanın "Heydər Əliyev: "Mən adamlara inanmışam" adlı müsahibəsini dərc etmişdir. |
| **1990-cı il 2 sentyabr** | "Şərq qapısı" qəzetində "Keçmiş" indi haqqında" adlı müsahibəsi dərc olunmuşdur. |
| **1990-cı il 26 sentyabr** | Tbilisidə çıxan "Sovet Gürcüstanı" qəzetinin müxbirlərinə müsahibə vermişdir. |
| **1990-cı il 30 sentyabr** | Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Muxtar Respublikası Ali Sovetinə Naxçıvandan deputat seçilmişdir. |
| **1990-cı il 17 noyabr** | Heydər Əliyevin sədrliyi ilə 12-ci çağırış Naxçıvan MSSR Ali Sovetinin 1-ci sessiyası öz işinə başlamışdır.<br><br>Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası Heydər Əliyevin sədrliyi ilə "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərarlar qəbul etmişdir |
| **1990-cı il 20 noyabr** | Naxçıvan MR Ali Məclisinin iclasında çıxış etmişdir. |
| **1990-cı il 21 noyabr** | Naxçıvan MR Ali Məclisi Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul etmişdir |
| **1990-cı il 24 noyabr** | Naxçıvan MR Ali Məclisinin iclasında çıxış etmişdir. |
| **1990-cı il 29 noyabr** | Naxçıvan MR Ali Məclisinin iclasında çıxış etmişdir. |
| **1990-cı il 14 dekabr** | Naxçıvan MR Ali Məclisi deputat Heydər Əliyevin hazırladığı "Azərbaycan SSR-in DQMV-də, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında" qərar qəbul etmişdir. |
| **1991-ci il 14 yanvar** | Naxçıvan MR Ali Məclisinin iclasında çıxış etmişdir. |
| **1991-ci il 20 yanvar** | Naxçıvan şəhər şəhidlər xiyabanında keçirilən matəm mitinqində çıxış etmişdir. |
| **1991-ci il 5 fevral** | Azərbaycan SSR Ali Sovetinin on ikinci çağırış birinci sessiyasında çıxış etmişdir. Sessiyada ona qarşı hücumlar təşkil edilmişdir. |
| **1991-ci il 15-17 fevral** | "Aydınlıq" və "Vətən səsi" qəzetlərində deputat Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinin birinci sessiyasında çıxışının tam mətni dərc olunmuşdur. |
| **1991-ci il** | Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında SSRİ-nin qorunub saxlanması barədə |

| | |
|---|---|
| **7 mart** | referendumda Azərbaycanın iştirakı məsələsinin müzakirəsində çıxış etmiş və bunun əleyhinə səs vermişdir. Həmin çıxış "Səs" qəzetinin 15 mart 1991-ci il tarixli nömrəsində dərc olunmuşdur. |
| **1991-ci il 19 iyul** | Kommunist Partiyasının sıralarını tərk etmişdir. |
| **1991-ci il 24 avqust** | Ali sovetinin növbədənkanar fövqəladə sessiyasının cağırılması ilə əlaqədar Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə məktubla müraciət etmişdir. |
| **1991-ci il 29 avqust** | Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında "Respublikada siyasi vəziyyət haqqında" məsələnin müzakirəsi zamanı etdiyi çıxışa görə siyasi təqiblərə məruz qalmışdır. |
| **1991-ci il 30 avqust** | Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycanın müstəqillik Bəyannaməsi" ilə bağlı çıxış etmişdir. |
| **1991-ci il 3 sentyabr** | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmişdir. |
| **1991-ci il 4 sentyabr** | Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında bəyanatla çıxış etmişdir. |
| **1991-ci il 5 sentyabr** | Nehrəm kəndinin sakinləri ilə görüşmüşdür. |
| **1991-ci il 6 sentyabr** | Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında bəyanatla çıxış etmişdir. |
| **1991-ci il 7 sentyabr** | Bəyanat verərək Azərbaycanın kommunist rəhbərliyini Naxçıvan MR Ali qanunverici orqanının fəaliyyətinə və səlahiyyətinə təsir göstərməkdə, demokratik prinsipləri boğmaqda təqsirləndirmiş, beynəlxalq təşkilatlardan xahiş etmişdir ki, Azərbaycan prezidentinin seçkiləri günü vəziyyəti obyektiv müəyyənləşdirmək üçün Naxçıvan MR-ə öz nümayəndələrini göndərsinlər. |
| **1991-ci il 9 sentyabr** | Rusiya Prezidenti B. N. Yeltsinə məktub göndərmiş, Naxçıvanda başlanan demokratik prosesləri dəstəkləməsini ondan xahiş etmişdir. |
| **1991-ci il 12 sentyabr** | Ermənistan SSR Ali Sovetinin sədri Levon Ter-Petrosyanla telefonla danışmış, qatarlara edilən basqınların, adamların tutulub girov saxlanmasının, həmsərhəd kəndlərə hücumların kökünü kəsmək üçün tədbirlər görülməsini tələb etmişdir. |
| **1991-ci il 17 sentyabr** | Ordubad və Şahbuz rayonlarının ərazisinə basqın edən erməni quldur dəstələrinin cinayət törətmələri ilə əlaqədar Ermənistan SSR Ali Sovetinin sədri Levon Ter-Petrosyana bəyanatla müraciət etmişdir. |
| **1991-ci il 19 sentyabr** | Rusiya parlamentinin nümayəndələri Viktor Popov və Anatoli Şabatı qəbul etmişdir |
| **1991-ci il 20 sentyabr** | Naxçıvan və Ermənistan arasında yaranmış gərgin vəziyyəti həll etmək üçün Ermənistan SSR Ali Sovetinin sədri Levon Ter-Petrosyana təkliflərlə müraciət etmişdir. |
| **1991-ci il 21 sentyabr** | Naxçıvan və Ermənistan arasında yaranmış gərgin vəziyyəti həll etmək üçün bir daha Ermənistan SSR Ali Sovetinin sədri Levon Ter-Petrosyana təkliflərlə müraciət etmişdir. |
| **1991-ci il 4 oktyabr** | Azərbaycan xalq deputatı Etibar Məmmədovu, “Ulduz” jurnalının baş redaktoru Abbas Abdullanı, BDU-nun professorları Xalid Əlimirzəyevi, Əhməd Abdinovu, Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunun direktoru Ramiz Rizayevi və Azərbaycan Dövlət İqtisad İnstitutunun dosenti İsa Məmmədovu qəbul etmişdir. |
| **1991-ci il 8 oktyabr** | Türkiyənin Mərmərə Eyitim və Kültür Vəqfinin Azərbaycandakı təmsilçisi Hilmi Öneyi və "Zaman" qəzetinin Azərbaycan üzrə müxbiri Yılmaz Poladı qəbul etmişdir. |
| **1991-ci il 12 oktyabr** | Naxçıvanın elektrik enerjisi ilə təchiz edilməsi sahəsində müqavilə öhdəliklərini yerinə yetirmək üçün Naxçıvan şəhərinə gəlmiş bir qrup türk mütəxəssisini qəbul etmişdir. |
| **1991-ci il 19 oktyabr** | Azərbaycan Respublikası Ali Sovetinin sessiyasına teleqram göndərərək dövlət müstəqilliyinin elan edilməsini böyük milli sərvət kimi dəyərləndirmiş, bu münasibətlə bütün Azərbaycan xalqını təbrik etmişdir. |

| | |
|---|---|
| **1991-ci il 20 oktyabr** | Amerikanın “Ey-Bi-Si Nyus” televiziya şirkətinin bir qrup əməkdaşını qəbul etmişdir. |
| **1991-ci il 26 oktyabr** | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxış etmişdir. |
| **1991-ci il 29 oktyabr** | Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərindən salınmış müvəqqəti körpünün rəsmi açılış mərasimində çıxış etmişdir. |
| **1991-ci il 1 noyabr** | Naxçıvanda ilk türk liseyinin açılması və 1992-1993-cü tədris ilində 100 nəfər naxçıvanlı gəncin Türkiyəyə ali təhsil almaq üçün göndərilməsi barədə Naxçıvan Muxtar Respublikası Xalq Təhsili Nazirliyi və Türkiyənin "Zaman" qəzeti arasında müqaviləni imzalamışdır. |
| **1991-ci il 5 noyabr** | Ermənistan Prezidenti L. Ter-Petrosyan arasında telefon danışığı zamanı sərhəddə yaranmış vəziyyət müzakirə olunmuşdur. |
| **1991-ci il 6 noyabr** | SSRİ DTK sədrinin müavini Nikolay Şamı və SSRİ Baş Sərhəd İdarəsinin şöbə rəisi Aleksandr Bessonovu qəbul etmişdir. |
| **1991-ci il 7 noyabr** | Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən bütün hərbi hissələrin komanda heyəti ilə görüş zamanı çıxış etmişdir. |
| **1991-ci il 9 noyabr** | Türkiyənin Qızıl Ay Cəmiyyətinin xətti ilə Muxtar Respublikaya 126 ton ərzaq gətirmiş Qars vilayəti valisinin vəkili İsmet Bahadırların başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| **1991-ci il 11 noyabr** | İran İslam Respublikasının Mərənd fərmandarı Rza İbadini Naxçıvanda qəbul etmişdir. |
| **1991-ci il 13 noyabr** | Naxçıvana gəlmiş Türkiyənin "Milliyət" və "Hürriyət" qəzetlərinin müxbirləri və digər xarici jurnalistlər üçün mətbuat konfransı keçirmişdir. |
| **1991-ci il 15 noyabr** | Türkiyənin nəqliyyat nazirliyinin dəmiryol, liman və aeroport tikintisi üzrə departamentinin baş direktoru Aytekin Akagünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| **1991-ci il 18 noyabr** | Türkiyənin Konya şəhərindən ərzaq dolu ilk yardım karvanı ilə Naxçıvana gəlmiş şəhər ziyalılarının nümayəndələrini qəbul etmişdir. |
| **1991-ci il 20 noyabr** | Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin Qars əski millət vəkili Səbri Aras, iş adamları Sönməz Karadaş və Zəfər Karadaşı qəbul etmişdir. |
| **1991-ci il 29 noyabr** | Türkiyənin İqdır şəhəri əhalisinin və valiliyinin göndərdikləri 19 yük maşınından ibarət ərzaq yardımını gətirmiş İqdır bələdiyyə rəisi Əli Ağrının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| **1991-ci il 4 dekabr** | İran İslam Respublikasının Şərqi Azərbaycan ostandarı ağayi Əkbər Pəhrizkarı Naxçıvanda qəbul etmişdir. |
| **1991-ci il 14 dekabr** | Naxçıvan MR Ali Məclisinin iclasında çıxış etmişdir. |
| **1991-ci il 15 dekabr** | Naxçıvan MR Ali Məclisinin iclasında çıxış etmişdir. |
| **1991-ci il 16 dekabr** | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü haqqında tarixi qərarını imzalamışdır. |
| **1991-ci il 27 dekabr** | ABŞ-ın Moskvadakı səfirliyinin əməkdaşlarını Naxçıvanda qəbul etmişdir. |
| **1991-ci il 30 dekabr** | İran İslam Respublikasının Maku fərmandarı Məhərrəm Allahverdizadə başda olmaqla nümayəndə heyətini Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci il 2 yanvar** | Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin iclasında çıxış etmişdir. |
| **1992-ci il 8 yanvar** | Naxçıvana yardım gətirmiş Türkiyənin "Firudin Dinkər Kifayət" tikinti, turizm, sənaye və ticarət şirkətinin sahibi Firudin Ayrımı və Türkiyənin "Milliyet" qəzetinin müxbirini qəbul etmişdir. |
| **1992-ci il 13 yanvar** | 1990-cı ilin 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsini tələb edən Naxçıvan MR Ali Məclisi Rəyasət heyətinin bəyanatını imzalamışdır. |
| **1992-ci il** | Naxçıvan-Türkiyə gömrükxanasının istifadəyə verilməsi məsələlərini müzakirə etmək məqsədilə |

| | |
|---|---|
| **19 yanvar** | Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə Muxtar Respublikaya gəlmiş nümayəndə heyətini qəbul etmişdir. |
| **1992-ci il 24 yanvar** | İran İslam Respublikasının "Qırmızı Aypara" cəmiyyəti sədrinin səlahiyyətli nümayəndəsi Əhməd Rəfiyi başda olmaqla nümayəndə heyətini Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci il 30 yanvar** | Türkiyənin "Şahar Groub" daxili və xarici ticarət şirkəti idarə heyətinin sədri Zekai Savaşları qəbul etmişdir. |
| **1992-ci il 1 fevral** | İran İslam Respublikasının Maku fərmandarı Məhərrəm Allahverdizadə başda olmaqla nümayəndə heyətini Naxçıvanda qəbul etmişdir.<br><br>İran İslam Respublikasının "Bonyade Möstezəfan və Canbazane Enqelabe Eslami" şirkətinin nümayəndələrini Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci il 2 fevral** | İran İslam Respublikası ağır sənaye nazirliyinin Şərqi və Qərbi Azərbaycan üzrə əlaqələndiricilərini Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci il 3 fevral** | Türkiyə Cümhuriyyətinin Prezidenti T. Özala zəng edərək Türkiyədə fevral ayının 1-də baş vermiş qar uçqunu nəticəsində 200-ə yaxın adamın həlak olması münasibətilə baş sağlığı vermişdir. |
| **1992-ci il 4 fevral** | Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl ilə telefon söhbəti olmuşdur. |
| **1992-ci il 6 fevral** | Naxçıvana ərzaq yardımı gətirmiş Türkiyənin "Madsan" xarici ticarət şirkətinin prezidenti İbrahim Aydını qəbul etmişdir. |
| **1992-ci il 1 mart** | Naxçıvanda ağır yüklü təyyarələri qəbul etməyə imkan verən yeni aeroportun işə düşməsi münasibətilə keçirilən mitinqdə çıxış etmiş, Xocalı soyqırımını hiddətlə qınamışdır. |
| **1992-ci il 5 mart** | Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl ilə telefon söhbəti olmuşdur. |
| **1992-ci il 8 mart** | Türkiyə Cümhuriyyətinin Naxçıvandakı baş konsulu Orxan Ərtoğruloğlunu qəbul etmişdir. |
| **1992-ci il 9 mart** | Azərbaycan Respublikası Ali Sovetinin sədri Y. Məmmədovla telefon danışığı olmuşdur. İctimai-siyasi vəziyyət barədə fikir mübadiləsi aparılmışdır. |
| **1992-ci il 10 mart** | Sədərək yaxınlığındakı sərhəd zastavasında Ermənistan Ali Sovetinin sədri Babken Arakçyanla keçirdiyi görüşdə atəşin kəsilməsi və Dağlıq Qarabağla bağlı məsələlər müzakirə olunmuşdur. |
| **1992-ci il 22-25 mart** | Türkiyə Cümhuriyyətinin prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin xüsusi dəvəti ilə Türkiyəyə rəsmi səfərə yola düşmüşdür.<br><br>Ankarada Türkiyə Cümhuriyyətinin ilk prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan Məmməd Əmin Rəsulzadənin qəbirlərinə əklillər qoymuşdur.<br><br>Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalla təkbətək görüşmüşdür.<br><br>Baş nazir Süleyman Dəmirəllə təkbətək görüşmüşdür.<br><br>Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolunu Baş nazir Süleyman Dəmirəllə birgə imzalamış və mərasimdə çıxış etmişlər.<br><br>İstanbul Qars, İqdır şəhərlərinin rəhbərləri ilə görüşüb danışıqlar aparmış, həmin şəhərlərin tarixi abidələri ilə tanış olmuşdur.<br><br>Süleyman Dəmirəlin şəxsi təyyarəsi ilə Naxçıvana qayıtmışdır. |

| | |
|---|---|
| **1992-ci il 1 aprel** | ATƏM-in Naxçıvana gələn nümayəndə heyətini qəbul etmiş, Naxçıvanın tam blokadaya salınması və Kərki kəndinin işğal olunması barədə məlumat vermişdir. |
| **1992-ci il 7 aprel** | Çeçen Respublikası hökumətinin başçısı Yaraqi Mamodayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| **1992-ci il 9 aprel** | Türkiyənin "Teletaş" şirkətinin xarici ölkələrdə ticarət şöbəsinin müdiri Mücit Emelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| **1992-ci il 18 aprel** | İran İslam Respublikasının xarici işlər nazirinin keçmiş Sovet İttifaqının müsəlman respublikaları üzrə müşaviri Şeyx Əttarı Naxçıvanda qəbul etmişdir.<br><br>Dağıstan Respublikası Dərbənd Rayon Xalq Deputatları Sovetinin sədri Səid Camal oğlu Qurbanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. |
| **1992-ci il 24 aprel** | Naxçıvana gəlmiş Qars vilayətinin valisi Sıtkı Aslan və Türkiyə elektrik şirkətinin eksperti Tevfik Karasunu qəbul etmişdir. |
| **1992-ci il 27 aprel** | Türkiyə Kənd Təsərrüfatı Nazirliyinin məsul işçilərini qəbul etmişdir. |
| **1992-ci il 28 aprel** | Bakıda, Ali Sovetin qarşısında keçirilən mitinqin iştirakçıları Ali Sovetin çağırılmasını, Konstitusiyanın Azərbaycan prezidenti üçün yaş həddini nəzərdə tutan bəndinə düzəliş edilməsini tələb etmiş, Heydər Əliyevin Azərbaycan prezidentliyinə namizəd göstərilməsinə tərəfdar çıxmışlar.<br><br>ABŞ-ın Azərbaycandakı səlahiyyətli nümayəndəsi R.Finni qəbul etmiş, mövcud ictimai-siyasi vəziyyət, Qarabağ probleminin həlli yolları və s. məsələlər müzakirə olunmuşdur. |
| **1992-ci il 1 may** | İran İslam Respublikasının Azərbaycandakı səfiri Əli Əsgər Nəhavandianı qəbul etmişdir. Səfir Naxçıvanda İİR-in konsulluğunun açılması barədə XİN-in məktubunu təqdim etmişdir. |
| **1992-ci il 2 may** | Azərbaycana rəsmi səfərə gəlmiş Türkiyənin Baş naziri Süleyman Dəmirəllə telefonla söhbəti olmuşdur. |
| **1992-ci il 3 may** | Türkiyənin Baş naziri Süleyman Dəmirəllə telefon danışığı olmuşdur. O, Heydər Əliyevin dəvətinə əsasən Naxçıvana gələcəyini bildirmişdir. |
| **1992-ci il 5 may** | Muxtar Respublikanın müdafiəsi ilə bağlı Naxçıvanın mərkəzi meydanında keçirilən mitinqdə çıxış etmişdir.<br><br>Aprelin 20-dən mayın 4-dək Naxçıvana yardım gətirilməsi ilə məşğul olan Türkiyə Cümhuriyyəti Qızıl Ay Cəmiyyətinin Naxçıvan üzrə yardım Komitəsinin sədri Şafak Lotarı qəbul etmişdir. |
| **1992-ci il 7 may** | Ermənistanın hərbi təcavüzü ilə bağlı Şərurda keçirilən mitinqdə çıxış etmişdir. |
| **1992-ci il 13 may** | İranın Qərbi Azərbaycan ostandarının müavini Yusif Modaress başda olmaqla nümayəndə heyətini Naxçıvanda qəbul etmişdir.<br><br>İran İslam Respublikasının xarici işlər nazirinin müavini ağayi Vaizini Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci il 15 may** | Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Ayaz Mütəllibov qanunsuz olaraq yenidən prezident kürsüsünü ələ keçirməsi ilə əlaqədar Naxçıvan televiziyası ilə əhaliyə müraciət etmiş, Ali Sovetin fövqəladə sessiyasının qəbul etdiyi qərarı "antidemokratik tədbir" adlandırmış, xalqa qarşı cinayətə yol verildiyini bildirmişdir. |
| **1992-ci il 18 may** | Yaqub Məmmədovun Ali Sovetin sədri vəzifəsindən azad edilməsindən sonra Ali Sovetin sədrliyinə Heydər Əliyevin namizədliyi göstərilmişdir. Heydər Əliyevə zəng vurmağın mümkün olmaması kimi yersiz bəhanə ilə səsvermə bülleteninə onun adı daxil edilməmişdir. |

| | |
|---|---|
| | Ermənistan prezidenti L.Ter-Petrosyanla telefon danışığında ondan hücumu və atəşi dayandırmağı tələb etmişdir.<br><br>Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun ərazisinə hərbi təcavüzü ilə əlaqədar Türkiyənin Baş naziri Süleyman Dəmirəllə, xarici işlər naziri Hikmət Çətinlə və Baş nazirin birinci müavini Ərdal İnönü ilə telefonla danışmışdır. |
| **1992-ci il 21 may** | Döyüş əməliyyatı rayonunda vəziyyətlə tanış olmaq üçün Naxçıvana gələn Türkiyə Xarici İşlər Nazirliyinin böyük elçisi Ömər Ərsunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Londonun "Deyli teleqraf" qəzetinin Naxçıvandan olan müxbirinə müsahibə vermişdir.<br><br>Azərinformun müxbirinə müsahibə vermişdir. |
| **1992-ci il 22 may** | Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar televiziya ilə Muxtar Respublika əhalisinə müraciət etmişdir. |
| **1992-ci il 25 may** | Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar keçirilmiş Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin iclasında çıxış etmişdir. |
| **1992-ci il 24 may** | Moskvaya yola düşən Türkiyənin Baş naziri Süleyman Dəmirəllə telefonla söhbət etmişdir.<br><br>İranın xarici işlər naziri Ə.Vilayəti ilə telefonla söhbət etmişdir. |
| **1992-ci il 27 may** | BMT-nin Naxçıvana gələn xüsusi nümayəndə heyəti ilə görüş zamanı erməni təcavüzünün nəticələri barədə məlumat vermişdir. |
| **1992-ci il 28 may** | Türkiyənin Baş naziri S. Dəmirəl Naxçıvana gəlmişdir.<br><br>Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində tikilmiş “Ümid” körpüsünün açılış mərasimində çıxış etmişdir. |
| **1992-ci il 29 may** | Azərbaycan Milli Yaradıcılıq Akademiyasının prezidenti Nizami Süleymanovu qəbul etmişdir. |
| **1992-ci i 1 iyun** | İzmir şəhərində keçirilən III Beynəlxalq İqtisadi Konqresdə iştirak etmək üçün Türkiyəyə yola düşmüşdür.<br><br>KİV nümayəndələri ilə görüş keçirmişdir. |
| **1992-ci i 2 iyun** | Türkiyədə dövlət nazirləri Cavit Çağlar, Ekrem Ceyhun, xarici işlər naziri Hikmət Çətin ilə görüşmüşdür.<br><br>Süleyman Dəmirəl ilə görüşmüşdür. |
| **1992-ci i 3 iyun** | Türkiyənin prezidenti Turqut Özalla və Baş nazirin müavini Ərdal İnönü ilə görüşmüşdür.<br><br>Türkiyənin Naxçıvan Muxtar Respublikasına verdiyi kreditdən istifadə edilməsi qaydası haqqında Türkiyə xarici işlər naziri Hikmət Çətinlə protokol imzalamışdır.<br><br>III Beynəlxalq İqtisadi Konqresdə çıxış etmişdir. |
| **1992-ci i 5 iyun** | Ermənistanın Naxçıvana hərbi təcavüzü nəticəsində yaralanaraq Ərzurumda müalicə olunan naxçıvanlılara baş çəkmişdir.<br><br>Naxçıvana qayıtmışdır. |
| **1992-ci i 11 iyun** | Belorus parlamentinin deputatları Viktor Kuçinskini və Sergey Naumovu Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci i 17 iyun** | Naxçıvana gələn ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili R.Maylsla görüşmüşdür.<br><br>Bakının rəsmi dairələrində Naxçıvan MR statusunun dəyişdirilməsi ilə əlaqədar Naxçıvan MR |

| | |
|---|---|
| | Ali Məclisi Rəyasət Heyətinin iclasında çıxış etmişdir. |
| **1992-ci i 2 iyul** | Sədərəkli qaçqınların vəziyyəti ilə tanış olmaq üçün onların yanına getmişdir. |
| **1992-ci i 8 iyul** | İran İslam Respublikasının Urmiya vilayəti fərmandarının müavini Rəsul Rzainin başçılıq etdiyi nümayəndə heyətini Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci i 9 iyul** | Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasındakı Sədərək-Dilucu körpüsünün rəsmi sərhəd keçid qapısı elan edilməsi barədə qərarı imzalamışdır. |
| **1992-ci i 15 iyul** | Rusiya Hərbi Hava Qüvvələrinin baş komandanı general-polkovnik Pyotr Deynekini və Müstəqil Dövlətlər Birliyi Hərbi Qüvvələri komandanının köməkçisi general-mayor Nikolay Stolyarovu qəbul etmişdir. |
| **1992-ci i 23 iyul** | Rusiya Federasiyasının Dağlıq Qarabağ məsələsi üzrə xüsusi nümayəndəsi Vladimir Kazimirovu Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci i 27 iyul** | İran İslam Respublikasının Qərbi Azərbaycan ostandarının müşaviri və siyasi idarənin baş müdiri Səyavuş Qəhvəçianın başçılıq etdiyi nümayəndə heyətini Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci i 8 avqust** | Naxçıvan MR Ali Məclisinin iclasında çıxış etmişdir. |
| **1992-ci i 10-14 avqust** | Naxçıvan nümayəndə heyətinin başçısı kimi Türkiyəyə yola düşmüşdür.<br><br>İqdıra vilayət statusu verilməsi mərasimində iştirak etmişdir.<br><br>Bayram mərasimində Türkiyə Cümhuriyyətinin baş naziri Süleyman Dəmirəllə birgə çıxış etmişdir.<br><br>Qars şəhərində olmuşdur.<br><br>Ankarada Türkiyənin Baş naziri Süleyman Dəmirəllə danışıqlar aparmışdır. |
| **1992-ci i 18 avqust** | Rusiyanın Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyasının əmlakının tamamilə Milli Ordunun briqadasına verilməsi haqqında aktın imzalanması mərasimində iştirak etmişdir. |
| **1992-ci i 19 avqust** | Xalq Cəbhəsinin Naxçıvana göstərdiyi təzyiqlərə etiraz əlaməti olaraq MR Ali Məclisinin qarşısında keçirilən izdihamlı mitinqdə çıxış etmişdir. |
| **1992-ci i 22-26 avqust** | İran İslam Respublikasına rəsmi səfər etmişdir.<br><br>İran İslam Respublikasının ali dini rəhbəri Ayətulla Seyid Əli Xamneyi ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının prezidenti Əli Əkbər Rəfsəncani ilə görüşmüşdür.<br><br>İran İslam Respublikası Milli Məclisinin sədri Natiq Nuri ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayəti ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının yol-nəqliyyat naziri Səidi Kiya ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının rabitə naziri Fərrazi ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının kooperasiya naziri Şəfai ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının energetika naziri Zəncani ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının neft və qaz naziri Ağazadə ilə görüşmüdür. |

| | |
|---|---|
| | "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının "Hilal Əhmər" cəmiyyətinin sədri Vəhid Dəstgird ilə görüşmüşdür.<br><br>Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlığa dair protokolları imzalamışdır. |
| **1992-ci il 13 sentyabr** | Naxçıvan televiziyası ilə çıxış edərək özünün istefası və Naxçıvanın separat siyasəti barədə yayılan şayiələri təkzib etmişdir. |
| **1992-ci il 16 sentyabr** | Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin iclasında çıxış etmişdir. |
| **1992-ci il 5 oktyabr** | Türkiyəyə təhsil almağa gedən ilk tələbə qrupu ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin iclas salonunda təşkil olunmuş görüşdə çıxış etmişdir. |
| **1992-ci il 7 oktyabr** | Türkiyənin "Zaman" qəzetinin dəvəti ilə Naxçıvandan keçməklə Türkiyəyə tanışlıq səfərinə gedən Azərbaycan jurnalistlərini qəbul etmişdir. |
| **1992-ci il 9 oktyabr** | Naxçıvanda Türkiyənin ali məktəblərinə qəbul olunmuş tələbələrlə görüşmüşdür.<br><br>Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının birinci ildönümü münasibətilə Naxçıvan şəhərindəki Azadlıq meydanında təşkil olunmuş hərbi paradda çıxış etmişdir. |
| **1992-ci il 10 oktyabr** | Bakıda "Naxçıvan" həftəlik ictimai-siyasi qəzetinin ilk nömrəsinin çapdan çıxması münasibətilə qəzetə təbrik məktubu göndərmişdir. |
| **1992-ci il 16 oktyabr** | Azərbaycan ziyalılarının böyük bir qrupu Heydər Əliyevə müraciət edərək ondan yaradılmaqda olan partiyaya rəhbərlik etməyə razılıq verməsini xahiş etmişlər. |
| **1992-ci il 18 oktyabr** | Azərbaycan sərhəd qoşunlarının Naxçıvandakı birinci dəstəsinin yerləşdiyi şəhərcikdə keçirilən andiçmə mərasimində iştirak etmişdir. |
| **1992-ci il 21 oktyabr** | Hüseyn Cavidin anadan olmasının 110 illiyini qeyd edilməsi ilə əlaqədar keçirilmiş müşavirəyə sədrlik etmişdir. |
| **1992-ci il 23 oktyabr** | Hüseyn Cavidin anadan olmasının 110 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirində çıxış etmişdir. |
| **1992-ci il 24 oktyabr** | Azərbaycan ziyalılarının müraciətinə cavab olaraq mətbuatda "Yeni, müstəqil Azərbaycan uğrunda" sərlövhəli məktubu dərc olunmuşdur.<br><br>Azərbaycan prezidenti Ə. Elçibəylə bir neçə dəfə telefonla danışaraq AXC Naxçıvan şöbəsi tərəfindən törədilən təxribata son qoyulmasını tələb etmişdir. |
| **1992-ci il 25 oktyabr** | Naxçıvan radiosu ilə əhaliyə müraciət etmişdir.<br><br>Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında sıxış etmişdir. |
| **1992-ci il 27 oktyabr** | Naxçıvandakı Azadlıq meydanında keçirilən mitinqin iştirakçıları Azərbaycan Prezidentindən Heydər Əliyevə və Naxçıvana qarşı göstərilən zorakılıq hərəkətlərini aradan qaldırmağı tələb etmişlər.<br><br>Yerli və xarici ölkə jurnalistləri üçün mətbuat konfransı keçirmişdir. |
| **1992-ci il 28 oktyabr** | Oktyabr ayının 24-də Naxçıvanda baş vermiş dövlət çevrilişi cəhdi ilə əlaqədar keçirilmiş toplantıda çıxış etmişdir. |
| **1992-ci il 5 noyabr** | Yeni Azərbaycan Partiyasının təsis edilməsi üçün yaradılan təşkilat komitəsinin sədri seçilmişdir.<br><br>Ordubad rayonu Nüsnüs kənd sakinlərini qəbul etmişdir. |
| **1992-ci il 10 noyabr** | Naxçıvan MR-in müdafiəsinə həsr olunmuş müşavirəyə sədrlik etmişdir. |

| | |
|---|---|
| **1992-ci il 12 noyabr** | Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyi mərasimində çıxış etmişdir. |
| **1992-ci il 20 noyabr** | İran İslam Respublikasının kooperasiya naziri Qulamrza Şafeinin rəhbərlik etdiyi nümayəndə heyətini Naxçıvanda qəbul etmişdir. |
| **1992-ci il 21 noyabr** | Naxçıvanda təsis yığıncağı keçirilən Yeni Azərbaycan Partiyasının (YAP) sədri seçilmişdir.<br><br>Türkiyənin İqdır və Aralıq vilayətlərinin bələdiyyə idarələri tərəfindən sədərəklilər üçün göndərilmiş 11 maşın ərzaq yardımmı müşayiət edən nümayəndə heyətini qəbul etmişdir. |
| **1992-ci il 25 noyabr** | Naxçıvanda hakimiyyət çevrilişi cəhdinin qarşısının alınması üçün radio ilə Muxtar Respublikasının əhalisinə müraciət etmişdir. |
| **1992-ci il 3 dekabr** | İrandan Naxçıvana 40 meqavat gücündə elektrik enerjisinin verilməsi münasibətilə Arazkənarı stansiyanın təntənəli açılması mərasimində çıxış etmişdir.<br><br>İranla Naxçıvanı birləşdirən Şahtaxtı-Poldəşt keçid məntəqəsinin açılması mərasimində çıxış etmişdir. |
| **1992-ci il 16 dekabr** | Yeni Azərbaycan Partiyası sədrinin müavini Murtuz Ələsgərova qarşı həyata keçirilmiş terrorçuluq aktı ilə əlaqədar müraciətlə çıxış etmişdir. |
| **1992-ci il 17 dekabr** | Naxçıvanda yaranmış ağır iqtisadi vəziyyətə həsr olunmuş müşavirəyə sədrlik etmişdir. |
| **1992-ci il 29 dekabr** | Naxçıvan televiziyası ilə çıxış edərək əhalini şayiələrə uymamağa, yaranmış gərginliyi aradan qaldırmaq üçün sabitliyi gözləməyə çağırmışdır.<br><br>"Naxçıvan" qəzetində "İnsan xalq üçün yaşayanda xoşbəxt olur" sərlövhəli müsahibəsi dərc olunmuşdur. |
| **1993-cü il 15 yanvar** | İran İslam Respublikasının Mərənd fərmandarı Məhəmməd Rza Notaşı Naxçıvanda qəbul etmişdir. |
| **1993-cü il 20 yanvar** | Naxçıvan MR-də Qanlı Yanvar faciəsinin 3-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanında keçirilən izdihamlı mitinqdə çıxış etmişdir.<br><br>B. Klintona ABŞ prezidenti seçilməsi münasibətilə təbrik və xüsusi məktub göndərmişdir. |
| **1993-cü il 27 yanvar** | “Nezavisimaya qazeta”nın müxbirinə müsahibə vermişdir. |
| **1993-cü il 2 fevral** | BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud əl-Səidi qəbul etmişdir. |
| **1993-cü il 4 fevral** | ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Riçard Maylsı Naxçıvanda qəbul etmişdir. |
| **1993-cü il 5 fevral** | Türkiyə Cümhuriyyətinin Naxçıvana yeni təyin olunmuş baş konsulu Orxan Ərtoğruloğlunu və Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Altan Karamanoğlunu Naxçıvanda qəbul etmişdir.<br><br>Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini Afiyəddin Cəlilovla birlikdə Naxçıvana gəlmiş respublika nazirlik və baş idarə rəhbərlərinin böyük bir qrupunu qəbul etmişdir. |
| **1993-cü il 7 fevral** | Yeni Azərbaycan Partiyası Culfa rayon təşkilatının təsis konfransında çıxış etmişdir. |
| **1993-cü il 8 fevral** | İran İslam Respublikasının Maku fərmandarı Nadir Səfərzadənin başçılıq etdiyi nümayəndə heyətini Naxçıvanda qəbul etmişdir. |
| **1993-cü il 11 fevral** | BMT-nin Qaçqınlarla İş Şurası nümayəndəliyinin sədri Petrik Smiti və onu müşayiət edən Beynəlxalq Qırmızı Xaş Cəmiyyətinin nümayəndələri Jerar Bessonu və Bernard Jüleri qəbul etmişdir. |
| **1993-cü il** | Bakıda Prezident sarayında Prezident Əbülfəz Elçibəylə görüşmüşdür. |

| | |
|---|---|
| **12 fevral** | |
| **1993-cü il 13 fevral** | YAP-ın Bakıdakı iqamətgahında partiya təəssübkeşləri ilə ilk görüşü keçirilmişdir. |
| **1993-cü il 17 fevral** | Naxçıvan Texniki-İstehsalat Rabitə İdarəsinin sifarişi ilə Fransanın milli "DSR Holdinqs" mətbəəsi, üzərində Heydər Əliyevin şəkli və Naxçıvan MR-in xəritəsi olan ilk poçt markasını buraxmışdır. |
| **1993-cü il 18 fevral** | Böyük Britaniyanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Brayan Folla Moskvada görüşmüşdür. |
| **1993-cü il 3 mart** | Bakıda olarkən Türkiyənin Azərbaycandakı səfirliyində olmuş, bu ölkənin fövqəladə və səlahiyyətli səfiri Altan Karamanoğlu ilə görüşmüşdür.<br><br>Bakıda olarkən ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Riçard Mayls ilə görüşmüşdür. |
| **1993-cü il 5 mart** | İngiltərənin Azərbaycandakı daimi nümayəndəsi Harold Fomstok və Fransa səfiri Jan Perre ilə görüşmüşdür. |
| **1993-cü il 8 mart** | İran İslam Respublikasının Naxçıvandakı baş konsulu Məhəmməd Sadeq Turini qəbul etmişdir.<br><br>Naxçıvanda İran İslam Respublikasının Konsulluğunun açılması mərasimində çıxış etmişdir.<br><br>Türkiyə Cümhuriyyətinin Naxçıvandakı baş konsulu Orxan Ərtoğruloğlunu qəbul etmişdir.<br><br>BMT-nin Qaçqınlarla İş üzrə Ali Komissarlığın Azərbaycandakı nümayəndəliyinin proqramlaşdırma məsələləri üzrə rəhbəri Lois Roviranı qəbul etmişdir. |
| **1993-cü il 10 mart** | ABŞ-ın Naxçıvana humanitar yardım gətirən inspeksiya qrupunun üzvləri – Robert Hovardı, Devid Robertsi və Cil Robinsonu qəbul etmişdir. |
| **1993-cü il 11 mart** | Böyük Britaniyanın Azərbaycandakı səlahiyyətli nümayəndəliyinin rəhbəri Harold Fomstounu qəbul etmişdir. |
| **1993-cü il 12 mart** | Naxçıvanda blokada nəticəsində yaranmış iqtisadi vəziyyətə həsr olunmuş müşavirə keçirmişdir. |
| **1993-cü il 13 mart** | Yeni Azərbaycan Partiyası Şahbuz rayon təşkilatının konfransında çıxış etmişdir. |
| **1993-cü il 16-19 mart** | ***16 mart***<br>İran İslam Respublikasının xarici işlər naziri Ələkbər Vilayətinin dəvəti ilə İrana rəsmi səfərə getmişdir.<br><br>İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayəti ilə görüşmüşdür.<br><br>***17 mart***<br>İran İslam Respublikasının prezidenti Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının energetika naziri Qulamrza Zəncani ilə görüşmüşdür.<br><br>İran İslam Respublikasının kooperasiya naziri Qulamrza Şafei ilə görüşmüşdür.<br><br>"Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdust ilə görüşmüşdür.<br><br>Tehran xəstəxanasında müalicə olunan Dağlıq Qarabağ cəbhəsində yaralanmış Azərbaycan Milli Ordusunun əsgərlərinə baş çəkmişdir. |

| | |
|---|---|
| | ***18 mart***<br>Təbrizdə Şərqi Azərbaycanın ostandarı Əli Əbdüləlizadə ilə əməkdaşlıq haqqında protokol imzalamışdır.<br><br>Təbrizin neftayırma zavodunun, "Atlaspod" fabrikinin və "Layko" şirkətinin işləri ilə tanış olmuşdur.<br><br>Təbrizdə böyük Azərbaycan şairi Şəhriyarın məzarını ziyarət etmişdir.<br><br>Jurnalistlər üçün mətbuat konfransı keçirtmişdir.<br><br>***19 mart***<br>Xudafərin-Culfa istiqamətində çəkilən yolun vəziyyəti ilə tanış olmaq üçün Təbrizdən Xudafərin körpüsünə getmişdir.<br><br>Naxçıvana qayıtmışdır. |
| **1993-cü il<br>20 mart** | Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Jan Perreni qəbul etmişdir. |
| **1993-cü il<br>1 aprel** | Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin geniş iclasında çıxış etmişdir. |
| **1993-cü il<br>2 aprel** | Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin iclasında çıxış etmişdir. |
| **1993-cü il<br>5 aprel** | "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun Naxçıvana gələn rəhbər heyətini qəbul etmişdir. |
| **1993-cü il<br>10 aprel** | İran İslam Respublikası Qərbi Azərbaycan vilayəti Qadınlar Cəmiyyətinin nümayəndələrini Naxçıvanda qəbul etmişdir.<br><br>Yeni Azərbaycan Partiyasının mətbu orqanı olan "Yeni Azərbaycan" qəzetinin nəşrə başlaması münasibətilə qəzetə təbrik teleqramı göndərmişdir. |
| **1993-cü il<br>12 aprel** | Azərbaycan Respublikasında fövqəladə vəziyyətlə əlaqədar Naxçıvan MR-in ərazisində komendantların təyin olunması barədə sərəncamına münasibət və əhalinin çörəklə təmin olunmasına həsr olunmuş müşavirəyə sədrlik etmişdir. |
| **1993-cü il<br>15 aprel** | Naxçıvan Muxtar Respublikası əhalisinin ərzaq malları ilə təchizatında yaranmış çətinliklərlə əlaqədar Türkiyə Cümhuriyyətinin Qızıl ay Cəmiyyətinin sədri Kemal Dəmirlə telefon söhbəti olmuşdur. |
| **1993-cü il<br>16 aprel** | Türkiyənin yaxın bölgələrinə işgüzar səfərə getmişdir.<br><br>Sədərək-Dilucu körpüsündə Aralıq qəzasının qaymaqamı Hasan İpek tərəfindən qarşılanmışdır.<br><br>Sərhəd dəstəsi rəhbərləri və gömrük işçiləri ilə görüşərək söhbət etmişdir.<br><br>İqdır vilayətində olmuşdur.<br><br>İqdırın valisi Ərdoğan İzgi və bələdiyyə rəisi Əli Ağrı tərəfindən qarşılanmışdır.<br><br>İqdırda Türkiyə Cümhuriyyətinin dövlət naziri Orhan Kilercioğlu ilə görüşmüşdür.<br><br>Türkiyə Cümhuriyyətinin dövlət naziri Orhan Kilercioğlu ilə İqdırın mərkəzi meydanında keçirilən böyük mitinqdə iştirak etmişdir. |

| | |
|---|---|
| | Türkiyə Cümhuriyyətinin dövlət naziri Orhan Kilercioğlu ilə İqdır vilayəti ərazisində yaşayan Ahıska türkləri ilə görüşərək çıxış etmişdir.<br><br>İqdırın valisi Ərdoğan İzgi ilə danışıq aparmışdır.<br><br>Naxçıvana qayıtmışdır.<br><br>Naxçıvanda ərzaq qıtlığı ilə əlaqədar Türkiyə Cümhuriyyətinin kənd təsərrüfat naziri Nəcməddin Cevheri ilə telefon söhbəti olmuşdur. |
| **1993-cü il 19 aprel** | Türkiyə Cümhuriyyətinin prezidenti Turqut Özalın vəfatı ilə əlaqədar Türkiyənin Naxçıvandakı Baş Konsulluğuna gələrək başsağlığı vermişdir.<br><br>Türkiyə Prezidenti T. Özalın dəfn mərasimində iştirak etmək üçün Türkiyəyə yola düşmüşdür.<br><br>Ankarada olarkən Turqut Özalın dəfn mərasimində iştirak etmək üçün Ankaraya gəlmiş Qazaxıstan Prezidenti N. Nazarbayev, Gürcüstanın dövlət başçısı E. Şevardnadze, Ermənistan Respublikasının prezidenti L. Ter-Petrosyan, Rusiya Federasiyası Baş nazirinin müavini Georgi Xica, İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayəti və digər dövlətlərin nümayəndə heyətlərin başçıları ilə görüşüb söhbət etmişdir.<br><br>Turqut Özalın ailəsini ziyarət etmiş, mərhum prezidentin həyat yoldaşı Səmra Özala və ailə üzvlərinə başsağlığı vermişdir.<br><br>Avropa Dövlətləri Birliyi komissiyasının büro rəhbəri Donanto Kiarinini və komissiyanın üzvü Riçard Levandovskini qəbul etmişdir. |
| **1993-cü il 23-25 aprel** | İstanbuldan Ankaraya gəlmişdir.<br><br>**23 aprel**<br>Türkiyə Böyük Millət Məclisinin Türkiyə Cümhuriyyətinin yaradılmasının 73-cü ildönümünə həsr olunmuş iclasında iştirak etmişdir.<br><br>**24 aprel**<br>Türkiyənin Baş naziri Süleyman Dəmirəllə görüşmüşdür.<br><br>Türkiyə Cümhuriyyətinin kənd təsərrüfat naziri Nəcməddin Cevheri və Qızıl Ay Cəmiyyətinin sədri Kamal Dəmirlə görüşmüşdür.<br><br>Ankarada Türkiyənin Ana Vətən Partiyasının başçısı Məsud Yılmazla görüşmüşdür.<br><br>**25 aprel**<br>Naxçıvana qayıtmışdır. |
| **1993-cü il 2 may** | “Moskovskiye novosti” qəzetinə müsahibə vermişdir. |
| **1993-cü il 7 may** | Nyu-York Geopolitik Analizlər İnstitutunun prezidenti Ellen Rayı, Kanadanın Manituveyc Universitetinin Yaxın Şərq problemləri üzrə mütəxəssisi Harri Ben Menaşanı, “SOXNUT” Yəhudi Agentliyinin Azərbaycan və Zaqafqaziya üzrə nümayəndəsi Lev Bardanini , Amerikanın “Si-Bi-Es” televiziya şirkətinin müxbiri Stüart Sendi və İsrailin “Davar” ictimai-siyasi qəzetinin xarici informasiya şöbəsinin müdiri Pazit Ravini qəbul etmişdir. |
| **1993-cü il 9 may** | Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivini qəbul etmişdir. |

| | |
|---|---|
| | Böyük Vətən müharibəsi veteranları ilə görüş zamanı çıxış etmişdir. |
| **1993-cü il 10 may** | ABŞ-dan Naxçıvana humanitar yardım gətirən inspeksiya qrupunun üzvlərini qəbul etmişdir.<br><br>70 illik yubileyi münasibətilə Naxçıvana gəlmiş Azərbaycanın tanınmış ziyalılarının böyük bir qrupunu qəbul etmişdir. |
| **1993-cü il 13 may** | Naxçıvan şəhərində İran İslam Respublikası Qərbi Azərbaycan ostandarı Q. Səadəti ilə mədəni-iqtisadi əməkdaşlıq barədə müqavilə imzalamışdır. |
| **1993-cü il 14 may** | Sədərəklə Ermənistanın Ararat rayonu arasındakı sərhəd zastavasında Naxçıvanın və Ermənistanın nümayəndə heyətləri görüşmüşlər. Görüş zamanı Heydər Əliyev və Ermənistan Ali Soveti sədrinin müavini A. Saakyan sərhədboyu məntəqələrdə təhlükəsizliyin təmin olunması ilə əlaqədar bəyannamə imzalamışlar.<br><br>Sədərək və Şərur rayonlarının sakinləri ilə görüşmüşdür. |
| **1993-cü il 16 may** | Süleyman Dəmirəli Türkiyə Cümhuriyyətinin Prezidenti seçilməsi münasibətilə təbrik etmişdir. |
| **1993-cü il 19 may** | Naxçıvan MR-dən Məkkəyə yola düşən zəvvarları qəbul etmişdir.<br><br>ABŞ Dövlət Departamentin nümayəndəsi Robert Pulini və ABŞ-ın Azərbaycandakı səfirliyinin ticarət-iqtisadiyyat şöbəsinin müdiri Robert Silvermanı qəbul etmişdir. |
| **1993-cü il 26 may** | Amerika Beynəlxalq Yardım və İnkişaf Agentliyi direktorunun sağlamlıq məsələləri üzrə baş müşaviri doktor Cerald V. Vaythauzu və həmin agentliyin Avropa-Asiya bölməsinin direktoru Pavel M. Kulakovu qəbul etmişdir. |
| **1993-cü il 27 may** | Azərbaycan Xalq Cümhuriyyətinin 75 illiyi münasibətilə Naxçıvanda keçirilmiş təntənəli yığıncaqda çıxış etmişdir. |
| **1993-cü il 1 iyun** | İran İslam Respublikasının "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondu prezidentinin müavini Mahmud Əhmədpurun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.<br><br>Rusiya–Azərbaycan Dostluq Cəmiyyətinin prezidenti Nikolay Baybakovu qəbul etmişdir. |
| **1993-cü il 2 iyun** | Türkiyənin Qızıl Ay Cəmiyyətinin xətti ilə Naxçıvanda humanitar yardım göstərilən təşkilatlara baş çəkmişdir. |
| **1993-cü il 3 iyun** | Cari məsələlərlə əlaqədar müşavirə keçirmişdir. |
| **1993-cü il 7 iyun** | 4 iyun Gəncə hadisələrinə həsr olunmuş Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabineti Rəyasət heyətlərinin birgə iclasında çıxış etmişdir. |